Ədəbiyyat qəzeti

# Vətən tarixinin poetik salnaməsi



Fevralın 3-də AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda tanınmış şair Ramiz Qusarçaylının eyniadlı poemasının yer aldığı "Vətən" kitabı təqdim edildi. Sözügedən institutun baş direktoru, professor İlham Məmmədzadə tədbiri açaraq bildirdi ki, əbədiyaşar poeziya ənənələrinə sadiqliyilə seçilən Ramiz Qusarçaylı "Vətən" poemasında müqəddəs Vətən sevgisindən qaynaqlanan könül duyğularını və poetik düşüncələrini mükəmməl şəkildə ifadə edib. Poema müasir poeziyamızın və Vətən tarixi ədəbiyyatımızın ən gözəl nümunələrindən biri kimi çox qiymətlidir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, millət vəkili, akademik İsa Həbibbəyli əhatəli çıxışında poemanı çağdaş poeziyamızın ən önəmli uğurlarından biri kimi dəyərləndirdi. Bildirdi ki, "Vətən" bütün tərəfləri ilə mənzum epopeyanın tələblərinə cavab verən poetik dastan-roman kimi oxunur: "Eyni zamanda bu, Azərbaycan haqqında yazılmış ilk poemadır. Hər bir dövrə, ümumən, tariximizə olan şair baxışı eyni zamanda təkcə şairanə bir baxış deyil, həm də elmdən gələn baxışdır. Poema müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ən yaxşı əsərlərindən biridir. Tarix boyu uduza-uduza gəldiklərimiz, eyni zamanda da uda-uda nail olduqlarımız poetik mətndə vətəndaş ağrısı və həm də qüruru ilə öz təcəssümünü tapır..."

Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmlər doktoru Eynulla Mədətli tədbiri əsl ədəbiyyatşünas səriştəsi ilə idarə edərək diqqətə çatdırdı ki, "Vətən" poemasında R.Qusarçaylı şirin dastan dilində Azərbaycanın 5 min illik tarixinin ən parlaq, cazibədar məqamlarını yüksək bədii ustalıq və can yanğısı ilə təsvir və şərh etməklə yanaşı, tariximizin acı dərslərini, çıxarmalı olduğumuz nəticələrini eyni prizmadan qabardır. "Şair, demək olar ki, Azərbaycan tarixinin elmə məlum olan bütün önəmli məqamlarını öz fitri istedadından süzülüb gələn bədii sözün qüdrətilə məharətlə canlandıra bilmişdir. Özü də bu zaman şair tarixin özündən çox, onun fəlsəfəsinə nüfuz edir, tarixi olayların məntiqi zəncirlə bir-birini şərtləndirdiyini ortaya qoyur, onlar arasında səbəb və nəticə əlaqələrini vurğulamaqla günümüz üçün çox vacib tarix dərslərini oxucuya təqdim edir..."

E.Mədətli əmin olduğunu bildirdi ki, "Vətən" dastanına dair çoxsaylı məqalələr, şərhlər yazılacaq, ədəbiyyatımızın, tariximizin açılmamış qatlarına, örtülü mətləblərinə nüfuz edən bu əsər tarixi Vətənimizin poetik salnaməsi kimi oxunacaq...

AMEA-nın müxbir üzvü Könül Bünyadzadə də "Vətən" poemasını çağdaş poeziyamızın uğurlu nümunəsi kimi dəyərləndirdi. Qeyd etdi ki, zamanın ayrı-ayrı məqamları kontekstində meydana çıxan və bir-birini izləyən ağrı və qürur duyğusu bütün poema boyunca davam edir, düşündürür və mücadiləyə səfərbər edir.

Arxeologiya, Etnoqrafiya və Antronologiya İnstitutunun baş direktoru, professor Abbas Seyidov poemanın bədii məziyyətlərindən bəhs etdi, belə əsərlərin tarixi, milli düşüncəni ifadə etmək baxımından daha şanslı və gərəkli olduğunu bildirdi.

Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru Nadir Məmmədli qeyd etdi ki, Ramiz Qusarçaylı Azərbaycan poeziyasına töhfə olan və yüksək vətənpərvərlik hissi ilə qələmə aldığı, Azərbaycan xalqının tarixi keçmişinin çox maraqlı dövrlərini canlandıran "Vətən" poemasında bədii fikrin, çağdaş ədəbi prosesin cəmiyyətin həyatındakı rolunu göstərə bilib. "Ramizin hər bir əsəri onun öz mənliyinin ifadəsidir. Onun deyim tərzi, söz seçimi; ifadə zənginliyi, obrazlı və yığcam fikirləri ibrətamizdir. Nədən yazırsa-yazsın, istedadı hisslərini bədii şəkilə salır. Şəxsi hissləri qırılmır. Fərdi üslubunun orijinallığı ilə seçilən Ramiz Qusarçaylı üçün şeir iç dünyasıdır, havadır, nəfəsdir. O, özünü; tarixdən, xalqdan, keçmişdən, Vətəndən yazır...".

Fəlsəfə elmləri doktoru Ziba Ağayeva "Vətən" poemasını R.Qusarçaylı yaradıcılığının zirvəsi kimi dəyərləndirdi. Qeyd etdi ki, müəllif Azərbaycan tarixini zamanın və məkanın fəlsəfi-tarixi fikir gerçəkliyi kontekstində, tarixi xronoloji ardıcıllıq prinsipi əsasında yazıb. "Poemada Azərbaycan məsələsi, milli birlik məsələsi şair tərəfindən ürək yanğısı ilə qələmə alınmışdır. Əsərdə yüksək poetik və fəlsəfi fikir istənilən tarixi hadisənin ən vacib detalları, bəzi tarixi səhnələrin təsviri və nəhayət, fabulası lə tamamlanır. Bütün hadisələr o qədər ətraflı şəkildə, bəzən kiçik detallarına qədər verilir ki, bəzən şairin bunu qafiyəyə necə oturda bilməsinə heyrətlənirsən... Poema elə bir tarixi dövrdə yazılmışdır ki, artıq, vətən tarixi xalqımızın mənəvi həyatının bir parçasına, xalqımızın tarixi təfəkkürünün formalaşmasında müstəsna çəkilisi olan bir amilə çevrilmişdir..."

Filologiya elmləri doktoru, tanınmış şair-tərcüməçi, kitabın ön söz müəllifi Şahin Fazil qeyd etdi ki, "Vətən" Azərbaycan adlı Vətənin ilk mənzum poemasıdır: "Ramiz Qusarçaylı torpağı üçün əsən, bayrağı üçün əsən vəfalı bir şairdir. Bu torpağın, bu Vətənin, bu mülkün haqqını bilən söz adamıdı. Onun "Vətən" poeması Vətən tarixi haqqında yazılmış çox dəyərli, şairanə bir əsərdir".

Fəlsəfə elmlər doktoru Füzuli Qurbanov, şair-filosof Əhməd Qəşəmoğlu və Asya Əhmədova da çıxış edərək Ramiz Qusarçaylının yaradıcılığı, təqdim olunan kitabı barədə fikirlərini bölüşdülər.

Sonda Ramiz Qusarçaylı tədbirin təşkilatçılarına, əsəri barədə xoş ürək sözlərini bildirənlərə təşəkkür etdi və yeni şeirlərini oxudu.

***S.HÜSEYNOĞLU***